**July 7, 2023**
Amendments to the Law on "Regulation of inspections conducted in the field of entrepreneurship and protection of interests of entrepreneurs".

## CLIENT ALERT

### Amendments to the Law on "Regulation of inspections conducted in the field of entrepreneurship and protection of interests of entrepreneurs".

According to the Law of the Republic of Azerbaijan "On Amendments to the Law on "Regulation of inspections conducted in the field of entrepreneurship and protection of interests of entrepreneurs" dated July 7, 2023, the following amendments were made to the Law:

**1.** One of those changes is the addition of a number of new definitions to Article 1 of the Law.

**2.** Regarding the scope of application of the law, the following additions were made to Article 2.2:

- Article 6-1 - "Rules of ethical conduct and prevention of conflicts of interest";
- Article 6-2.4 - "The periodicity of inspections, the number of violations discovered during the inspection and the number of liability measures applied for them, the amount of fines and other financial sanctions are not taken into account to evaluate the activity of inspection bodies."

In addition, the points mentioned in the previous period in Article 7 has been changed in the parts mentioned below:

- "Unless otherwise provided for in the normative legal acts defining the powers of the inspection body, direct control over the activity of the inspectors is carried out by the management of the inspection body and the internal control body";

- "Inspectors must ensure the protection of information to which access is restricted with the Law of the Republic of Azerbaijan on "Obtaining information".

**3.** The rights and duties of the parties were reflected in a specific order by adding chapter 1-1 entitled "Rights and duties of the inspector and the entrepreneur".

**4.** Article 6-1 entitled "Rules of ethical conduct and prevention of conflicts of interest" and Article 6-2 entitled "Evaluation of the activity of the inspection body (inspectors)" have been added to the list of powers of the inspection body.

**5.** According to the new edition of Article 7.5, the inspection body must adopt an annual training plan. Those training plans should ensure the improvement of the inspectors' competence in the following areas (directions):

- professional knowledge in the relevant field of inspection;
- risk management;
- promotion of compliance with mandatory requirements, as well as communication with entrepreneurs and the public;
- measures taken according to the results of the inspection.

**6.** Article 9-1 entitled "Risk management system" was added to Article 9 entitled "Distribution of entrepreneurs by risk groups".

**7.** According to Article 12, the following should be included in the annual report on inspections:

- "the assessment of the level of risk and safety of human life and health, the environment, and property interests of the state related to the control area of the inspection body."

Besides, according to the new addendum, "The inspection body must provide advice and explanations to entrepreneurs regarding issues related to its control area. Inspection bodies should prepare an annual plan for the promotion of compliance with mandatory requirements by November 1 of the current year, which includes the actions planned for the following year, and post them on their official websites no later than December 1 of the current year."

**8.** The following additions have been made to Article 13 "Unified data register of inspections":

- "The body (institution) determined by the relevant executive authority, which maintains a unified information register of inspections, must register the inspections submitted in accordance with the requirements of this Law in the register";

- "The inspection body sends semi-annual information about the work done according to Article 12.1.5 of this Law twice a year (until January and July 15) to the body (institution) determined by the relevant executive authority, which maintains a unified data register of inspections."

- "The body (institution) determined by the relevant executive

authority, which maintains a single data register of inspections, summarizing the semi-annual data provided for in Article 13.6 of this Law on inspections conducted in the field of entrepreneurship, sends it twice a year (until February and August 15) to the body (institution) determined by the relevant executive authority ".

**9.** According to the additions to Article 19, the list of inspection questions should reflect the mandatory requirements checked during the inspection and should be based on risks. In addition, the examination questions should be clearly and unambiguously formulated, the priority of the questions should be determined according to the different special weight (points) assigned to them. The list of each inspection question should have an evaluation system that allows determining the risk level of the inspection object after the inspection. A different specific weight (score) for each question should be proportional to the degree of risk.

**10.** The following additions were made to Article 26 entitled "Payment of the cost of work (services) related to taking product samples and their research (testing)":

- If the entrepreneur does not agree with the result of the study (test) or has doubts about this result, he can request a new study (test) at his own expense. If there is a conflict between the result of the initial study (test) and the result of the new study (test), the dispute is resolved in court.

- Costs incurred in connection with the payment of the cost of the samples of the taken products, their storage, keeping the studied (tested) parameters unchanged, transportation, research, informing about the obtained results, further sale or disposal of the product are paid by the inspection body.

**11.** Information about the object of inspection (name, address, description, etc.) is also included in the list of information to be mentioned in the inspection act (Article 31).

**12.** It was added to the procedure for filing a complaint against the decisions and actions (inaction) of the inspection bodies (inspectors) that "If the relevant executive body finds signs of an administrative offence in the act while considering the complaints, it should take measures in accordance with the Code of Administrative Offences of the Republic of Azerbaijan to initiate proceedings on administrative offence."

**7 İyul 2023-cü il**

**“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Qanuna dəyişikliklər**

•••

**MÜŞTƏRİNİN NƏZƏRİNƏ!**

**“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Qanuna dəyişikliklər**

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Qanuna 7 iyul 2023-cü il tarixli Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakı dəyişikliklər edilib:

1. Həmin dəyişiklərdən biri Məcəllənin 1-ci maddəsinə yeni anlayışların əlavə edilməsidir.

2. Qanunun tətbiq dairəsi ilə bağlı 2.2-ci maddəyə aşağıdakı əlavələr edilmişdir:

   – "*Etik davranış qaydaları və maraqlar toqquşmasının qarşısının alınması*" başlıqlı 6-1-ci maddə;

   – *“Yoxlamaların dövriliyi, yoxlama zamanı aşkar edilmiş pozuntuların və onlara görə tətbiq edilən məsuliyyət tədbirlərinin sayı, cərimələrin və maliyyə xarakterli digər sanksiyaların məbləği yoxlayıcı orqanların fəaliyyətini qiymətləndirmək üçün nəzərə alınmır”* məzmunlu 6-2.4-cü maddə.
   Bununla yanaşı, 7-ci maddədə əvvəlki dövrdə qeyd olunan bəndlər: - “Yoxlayıcı orqanın səlahiyyətlərini müəyyən edən normativ hüquqi aktlarda başqa qayda nəzərdə tutulmadıqda, yoxlayıcıların fəaliyyətinə birbaşa nəzarəti yoxlayıcı orqanın rəhbərliyi və daxili nəzarət qurumu həyata keçirir”;

   – “Yoxlayıcılar “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu ilə əldə olunması məhdudlaşdırılan informasiyanın qorunmasını təmin etməlidirlər” ilə əvəz edilmişdir.

3. *“Yoxlayıcının və sahibkarın hüquq və vəzifələri”* başlıqlı 1-1-ci fəsil əlavə olunaraq tərəflərin hüquq və vəzifələri konkret ardıcıllıqla öz əksini tapmışdır.

4. Yoxlayıcı orqanın səlahiyyətləri sırasına *“Etik davranış qaydaları və maraqlar toqquşmasının qarşısının alınması”* başlıqlı 6-1-ci maddə və *“Yoxlayıcı orqanın (yoxlayıcıların) fəaliyyətinin qiymətləndirilməsi”* başlıqlı 6-2-ci maddə əlavə olunmuşdur.

5. 7.5-ci maddənin yeni redaksiyasına əsasən yoxlayıcı orqan illik təlim planı qəbul etməlidir. Həmin təlim planları isə

yoxlayıcıların aşağıdakı sahələr (istiqamətlər) üzrə səriştələrinin artırılması təmin edilməlidir:

– müvafiq yoxlama sahəsi üzrə peşə biliyi;
– risklərin idarə olunması;
– məcburi tələblərə riayət edilməsinin təşviqi, eləcə də sahibkarlar və ictimaiyyətlə ünsiyyət;
– yoxlamanın nəticələrinə uyğun olaraq görülən tədbirlər.

**6.** *"Sahibkarların risk qrupları üzrə bölgüsü"* başlıqlı 9-cu maddəyə *"Risklərin idarə olunması sistemi"* başlıqlı 9-1-ci maddə əlavə edilmişdir.

**7.** 12-ci maddədə yoxlamalar barədə illik hesabata "yoxlayıcı orqanın nəzarət sahəsinə aid olan risk və insan həyatı və sağlamlığının, ətraf mühitə, dövlətin əmlak maraqlarının təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi haqqında" məlumatlar da daxil edilməlidir.

Həmçinin yeni əlavəyə əsasən "Yoxlayıcı orqan öz nəzarət sahəsinə aid məsələlərlə bağlı sahibkarlara məsləhət və izahat verilməsini təmin etməlidir. Yoxlayıcı orqanlar məcburi tələblərə riayət edilməsinin təşviqi üzrə cari ilin noyabrın 1-dək növbəti il üçün keçirilməsi nəzərdə tutulan tədbirlərdən ibarət illik planı hazırlamalı və özlərinin rəsmi internet səhifələrində cari ilin dekabrın 1-dən gec olmayaraq yerləşdirməlidirlər".

**8.** 13-cü maddəyə "*Yoxlamaların vahid məlumat reyestri*"-nə aşağıdakı əlavələr edilmişdir:

- "Yoxlamaların vahid məlumat reyestrini aparan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun tələblərinə uyğun olaraq təqdim edilmiş yoxlamaları reyestrdə qeydiyyata almalıdır";

- "Yoxlayıcı orqan bu Qanunun 12.1.5-ci maddəsinə əsasən görülmüş işlər barədə yarımillik məlumatı ildə iki dəfə (yanvarın və iyulun 15-dək) yoxlamaların vahid məlumat reyestrini aparan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərir".

- "Yoxlamaların vahid məlumat reyestrini aparan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) sahibkarlıq sahəsində aparılan yoxlamalar barədə və bu Qanunun 13.6-cı maddəsində nəzərdə tutulmuş yarımillik məlumatları ümumiləşdirərək, ildə iki dəfə (fevralın və avqustun 15-dək) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərir".

**9.** 19-cu maddəyə edilmiş əlavələrə əsasən yoxlama suallarının siyahısı yoxlama zamanı yoxlanılan məcburi tələbləri əks

etdirməli, risklərə əsaslanmalıdır. Bununla yanaşı, yoxlama sualları aydın və birmənalı tərtib olunmalı, sualların prioritetliyi onlara təyin olunmuş müxtəlif xüsusi çəki (bal) üzrə müəyyən edilməlidir. Hər bir yoxlama suallının siyahısının elə bir qiymətləndirmə sistemi olmalıdır ki, yoxlamadan sonra yoxlama obyektinin risk səviyyəsini müəyyənləşdirməyə imkan versin. Hər bir sual üçün fərqli xüsusi çəki (bal) risk dərəcəsinə mütənasib olmalıdır.

**10.** *"Məhsul nümunələrinin götürülməsi və onların tədqiqi (sınağı) ilə bağlı işlərin (xidmətlərin) dəyərinin ödənilməsi"* başlıqlı 26-cı maddəyə isə aşağıdakı əlavələr edilmişdir:

- Sahibkar tədqiqin (sınağın) nəticəsi ilə razılaşmadıqda və ya bu nəticəyə şübhələri olduqda, öz hesabına yeni tədqiqin (sınağın) keçirilməsini tələb edə bilər. İlkin tədqiqin (sınağın) nəticəsi ilə yeni tədqiqin (sınağın) nəticəsi arasında ziddiyyət olduqda, mübahisə məhkəmə qaydasında həll olunur.

- Götürülən məhsul nümunələrinin dəyərinin ödənilməsi, onların saxlanılması, tədqiq (sınaq) edilən parametrlərin dəyişməz saxlanılması, daşınması, tədqiqi, alınmış nəticələr barədə məlumat verilməsi, məhsulun daha sonrakı satışı və ya utilizasiyası ilə əlaqədar yaranan xərclər yoxlayıcı orqan tərəfindən ödənilir.

**11.** 31-ci maddədə qeyd olunan yoxlama aktına məlumatlar siyahısına yoxlama obyektinə dair məlumatlar (adı, ünvanı, təsviri və s.) da daxil edilmişdir.

**12.** Yoxlayıcı orqanların (yoxlayıcıların) qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) şikayət verilməsi qaydasına da əlavə edilərək qeyd olunmuşdur ki, "şikayətlərə baxan zaman müvafiq icra hakimiyyəti orqanı həmin əməldə müvafiq inzibati xəta əlamətləri aşkar edərsə, inzibati xətalar haqqında işlər üzrə icraata başlamaq üçün Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun tədbirlər görməlidirlər".

BHM Newsletter is organized by themes about major legal processes which aim to alert businesses
about significant laws, legislative changes, landmark court decisions and important information about the company.
This material should not be construed as legal advice or legal opinion.

**FOR MORE INFORMATION:**

"SKS" Plaza, 7th floor, 49 Fuzuli Str., AZ1014
T. (+994 12) 480 0088

office@bhm.az

www.bhm.az
**© BHM Law Firm LLC. All rights reserved.**